**Aqil NURİYEV,**
*Milli Aviasiya Akademiyasının iqtisadiyyat və hüquq fakültəsi, Hüquqşünaslıq kafedrası*

# AZƏRBAYCAN RESPUBLİKASI MDB-yə QOŞULDUQDAN SONRA MİLLİ HÜQUQ SiSTEMİNDƏ BAŞ VERƏN İSLAHATLAR

Azərbaycan xalqı öz dövlət müstəqilliyini əldə etdikdən sonra cəmiyyətin gələcək inkişafı üçün hüquqi islahatların həyata keçirilməsi, tamamilə yeni, mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılması zəruri idi. Təsadüfi deyil ki, ölkəmizdə hüquqi islahatların həyata keçirilməsinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmışdır.

Azərbaycan müstəqilliyə qədəm qoyduğu ilk zamanlardan yeni qurulmuş gənc dövlət olaraq bir çox çətinliklərlə üzləşmişdir. Belə ağır vəziyyətdə respublikamız hüquq sisteminin inkişafı ilə birlikdə həm də xarici əlaqələrə, eləcə də beynəlxalq və regional təşkilatlarla münasibətlərə və digər dünya dövlətləri arasında beynəlxalq nüfuzuna xüsusi önəm vermişdir. Azərbaycan müstəqilliyə gedən yolda dəfələrlə qondarma Ermənistanın yalançı ərazi iddialarına və işğalçı hücumlarına məruz qalmışdır. Bu hücumlar nəticəsində Azərbaycan ərazisinin 20% -i işğal edilmiş, 1 milyon vətəndaşımız qaçqın və məcburi köçkün düşmüş, çoxlu sayda şəhidlər verilmişdir. Məhz bu səbəb 1990-cı illərin ilk yarısında Azərbaycanı həm müstəqilliyini möhkəmləndirmək, həm də ərazilərinin Ermənistan tərəfindən işğalı probleminin ədalətli həllinə nail olması üçün çoxşaxəli və effektiv münasibətlər qurmağa vadar edirdi. Təsadüfi deyil ki, bu baxımdan Müstəqil Dövlətlər Birliyi

(MDB) ilə münasibətlər Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir.

Bildiyimiz kimi, MDB 8 dekabr 1991-ci ildə SSRİ-nin dağılmasını zəruri bilən və buna əmin olan Rusiya, Ukrayna və Belarusun rəhbərləri – B.Yeltsin, L.Kravçuk və S.Şuşkeviç tərəfindən imzalanan saziş əsasında qurulmuşdur. Həmin ilin 21 dekabrında isə Azərbaycan da daxil olmaqla bir sıra dövlətlər Alma-Atada MDB-ə qoşulmaq haqqında razılığa gəliblər. Həmin dövlətlər arasında əldə edilmiş ümumi fikir razılığına və Alma-Ata deklarasiyasına əsasən, keçmiş Sovet İttifaqına daxil olan dövlətlər daxili və xarici siyasətin müxtəlif sahələrində əməkdaşlıq etməli, siyasi, iqtisadi və mədəni əlaqələrini bütün fəaliyyət sahələrində mümkün olduğu qədər genişləndirməli idilər. Eyni zamanda, MDB-yə üzv olan ölkələrin hər biri ayrılıqda beynəlxalq hüququn müstəqil və bərabərhüquqlu subyektləridir. MDB -nin əsas məqsədi təşkilata üzv olan bütün dövlətlərin bir çox sahələrdə inkişafına şərait yaratmaqla bərabər, həmçinin siyasi, iqtisadi, ekoloji, humanitar, mədəni və digər sahələrdə əməkdaşlıq və dövlətlərin ümumi iqtisadi məkanda, dövlətlərarası kooperasiya və inteqrasiya şəraitində hərtərəfli inkişaf etdirilməsini təmin etməkdir.

Ulu öndər Heydər Əliyevə qədər hakimiyyətdə olan AXC və onun liderləri Azərbaycanın MDB-yə üzv olmasının qəti əleyhinə idilər. Onlar Azərbaycanın MDB-yə üzv olduğu təqdirdə öz müstəqilliyini tam qoruya bilməyəcəyini və müəyyən qərarların verilməsində MDB-dən asılı olacağını düşünürdülər. Lakin, ümummilli liderimizin düzgün və uzaqgörən siyasətinin nəticəsi olaraq, Azərbaycanın MDB-yə tam hüquqlu üzv kimi daxil olması Azərbaycan parlamentinin prezident səlahiyyətlərinin Heydər Əliyevə verilməsi qərarından sonra baş vermişdir [1].

Beləliklə də, Azərbaycanın 21 dekabr 1991-ci il tarixli MDB-yə qoşulmaq haqqında qərarı 1993-cü ilin sentyabrında ratifikasiya edilir və həmin tarixdən etibarən Azərbaycan MDB-nin tam hüquqlu üzvü olur. Bu barədə Azərbaycan Respublikası Milli Məclisinin 20 sentyabr 1993-cü il tarixli Qərarı qəbul edilir. Həmçinin, qeyd etmək lazımdır ki, həmin qərar ilə Azərbaycan Respublikası Müstəqil Dövlətlər

Birliyinin kollektiv təhlükəsizlik haqqında müqaviləsinə qoşulur (*Qeyd: Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünə MDB-nin bir təşkilat olaraq siyasi qiymət vermədiyini əsas gətirən Azərbaycan Respublikası 1999-cu ildə kollektiv təhlükəsizlik haqqında müqavilədən çıxmışdır*).

1993-cü ildə eyni zamanda MDB-nin Nizamnaməsi qəbul edilmişdir. Nizamnamədə dövlətlərin aşağıdakı birgə fəaliyyət sahələri vurğulanır:

- İnsan hüquq və azadlıqlarının təmin olunması;
- Xarici siyasət fəaliyyətinin əlaqələndirilməsi;
- Ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat və rabitə sahələrində əməkdaşlığın inkişaf etdirilməsi;
- Əhalinin sağlamlığının və ətraf mühitin qorunması;
- Sosial və immiqrasiya siyasəti məsələləri;
- Mütəşəkkil cinayətkarlıqla mübarizə;
- Müdafiə siyasətində və xarici sərhədlərin mühafizəsində əməkdaşlıq.

Beləliklə, nizamnamə MDB üzvü olan dövlətlərin bir araya gəlməsi üçün əsas məqsədləri müəyyən etmişdir. MDB-nin fəaliyyəti ərzində yüzlərlə saziş qəbul edilmiş və nəticədə böyük bir hüquqi massiv yaradılmışdır.

Azərbaycan Respublikası öz növbəsində MDB-yə daxil olduqdan sonra milli qanunvericilik sistemində mühüm islahatlar gerçəkləşmiş və MDB ilə birgə fəaliyyət üzrə çoxsaylı yeni qanunlar qəbul edilmişdir.

Belə ki, 01 sentyabr 1995-ci il tarixdə Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin «Mülki, ailə və cinayət işləri üzrə hüquq münasibətləri və hüquqi yardım haqqında» 1993-cü il yanvarın 22-də Minsk şəhərində bağladığı Konvensiyaya qoşulmuşdur.

Daha sonra, 12 sentyabr 1995-ci ildə «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gömrük qanunvericiliklərinin Əsasları haqqında» Qərar, 16 sentyabr 1995-ci ildə Azərbaycan Respublikası tərəfindən Müstəqil Dövlətlər Birliyinin iştirakçıları olan dövlətlər arasında «Gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında»

Saziş və «Gömrük xidmətlərinin qanunsuz aparılan və gətirilən mədəni sərvətlərin tutulub saxlanılması və geri qaytarılması məsələləri üzrə əməkdaşlığı haqqında» Saziş təsdiq edilmişdir.

Qeyd edilən sazişlərin təsdiqi öz növbəsində Azərbaycanın gömrük sahəsində mövcud qanunvericiliyinin təkmilləşdirilməsinə və MDB-yə üzv digər qonşu dövlətlər ilə ticarət sahəsində uğurlu addımların atılmasına öz töhfəsini vermişdir.

MDB-nin fəaliyyəti ərzində çoxsaylı sazişlərin qəbul edilməsi və üzv dövlətlərin də həmin sazişlərə qoşulması mühüm irəliləyiş idi. Lakin, burada daha vacib bir məqam qəbul edilmiş sazişlərin icrası və sazişlərə qoşulduqdan sonra dövlətlərin həmin sazişlərdən irəli gələn öhdəlikləri düzgün icra etməsi məsələsi idi.

MDB daxilində qəbul edilmiş qərarların icrasına təsir və nəzarət funksiyası MDB İqtisadi Məhkəməsinin üzərinə düşür.

«Müstəqil Dövlətlər Birliyinin İqtisadi Məhkəməsinin statusu haqqında» 1992-ci il iyulun 6-da Moskva şəhərində saziş imzalanmışdır. Azərbaycan Respublikası 8 oktyabr 1996-cı ildə aşağıdakı qeyd-şərtlərlə həmin sazişə qoşulmuşdur: «Azərbaycan Respublikası «Müstəqil Dövlətlər Birliyinin İqtisadi Məhkəməsinin statusu haqqında» Sazişə əlavə olunmuş Müstəqil Dövlətlər Birliyinin İqtisadi Məhkəməsi haqqında Əsasnaməni 3-cü bəndin üçüncü abzası, 5-ci bənd, 10-cu bəndin altıncı abzası istisnaolunmaqla, 3-cü bəndə «Tərəflərdən biri imtina edərsə İqtisadi Məhkəmənin plenumunun qərarı ilə razılaşdırıldıqda, habelə İqtisadi Məhkəmə mübahisələrə baxmır» məzmununda abzas əlavə olunmaqla və 10-cu bəndə «Sazişin iştirakçısı olan dövlətlər İqtisadi Məhkəmədə mübahisələrə baxılmadıqda beynəlxalq məhkəməyə müraciət edə bilərlər» məzmununda abzas əlavə edilməklə tətbiq edəcəkdir».

MDB-nin iştirakçısı olan dövlətlər qarşılıqlı yardım, əməkdaşlıq və siyasət məsələləri ilə yanaşı, həm də iştirakçı dövlətlərin vətəndaşlarının bir-birinin ərazisində hərəkətini təmin etmək üçün viza məsələsi ilə bağlı razılığa gəlmiş və beləliklə «Müstəqil Dövlətlər Birliyi dövlətlərinin vətəndaşlarının onun iştirakçılarının ərazisində vizasız hərəkəti haqqında» və «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin

vizalarının qarşılıqlı tanınması haqqında» 1992-ci il noyabrın 13-də Moskva şəhərində saziş imzalamışlar. Azərbaycan Respublikası da öz növbəsində 6 may 1997-ci ildə həmin Sazişə qoşulmuş, lakin öz qeyd-şərtini əlavə etmişdir: *Belə ki, bu Sazişin müddəaları Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında silahlı münaqişənin tam nizama salınmasına və iki respublika arasında diplomatik münasibətlərin yaradılmasına qədər tətbiq edilməyəcəyi bildirilmişdir*.

Azərbaycan Respublikası 10 aprel 1998-ci ildə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin mülki aviasiyasının aviasiya texnikasının istismarının və təmirinin təmin edilməsi üzrə transmilli maliyyə-sənaye qrupunun yaradılması haqqında Sazişə qoşulmuşdur.

Azərbaycan Respublikasının beynəlxalq iqtisadi münasibətlərin və xarici-iqtisadi fəaliyyətin genişlənməsi, xarici-ticarət əməliyyatlarının həcminin sürətlə artması bu sahənin əhəmiyyətini artırmışdır. Bu səbəbdən respublikamız tərəfindən 24 aprel 1998-ci ildə «Sərnişinlərin və baqajın beynəlxalq avtomobil daşımaları haqqında Konvensiya» və ona əlavə edilən «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin beynəlxalq əlaqələrində avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşımalarının Qaydaları», bundan əlavə 12 fevral 2002-ci il tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında" Saziş, 02 aprel 2002-ci il tarixdə "Dəmiryol nəqliyyatında vergiqoyma mexanizminin yaxınlaşdırılması sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında" Saziş, 22 oktyabr 2002-ci il tarixdə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Hökumət Başçıları Şurasının 1999-cu il iyunun 4-də Minsk şəhərində keçirilmiş iclasında Azərbaycan Respublikası tərəfindən imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında vergi qanunvericiliyinə əməl edilməsi və bu sahədə pozuntularla mübarizə məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Saziş təsdiq edilmişdir.

Yuxarıda sadalanan qanunvericilik aktlarından da göründüyü kimi, Azərbaycan Respublikasında qanunvericiliyin müxtəlif sahə-

lərində yeni qanunların qəbulu və sazişlərin təsdiqi ilə mühüm islahatlar müşahidə edilir.

Dövlətin əsas prioritet istiqamətlərindən olan cinayətkarlıqla mübarizə və antiterror tədbirlərinin təşkili sahəsində də bu dövrlərdə mühüm addımlar atılmış, Azərbaycan çoxsaylı sazişlərə qoşularaq bu sahədə öz qanunvericilik aktlarını təkmilləşdirmişdir.

Belə ki, 13 yanvar 2004-cü il tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazilərində birgə antiterror tədbirlərinin təşkili və keçirilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsinə dair" Protokol, 6 aprel 2004-cü il tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin cinayətkarlıqla mübarizədə əməkdaşlığı haqqında" Saziş, bundan əlavə, 6 aprel 2004-cü il tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin kompyuter informasiyası sahəsində cinayətlərə qarşı mübarizədə əməkdaşlığı haqqında" Saziş Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 23 may 2006-cı il tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" sazişə, bundan əlavə həmin tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun tərkibində Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi üzrə struktur bölməsinin və onun regional əməliyyat qrupunun yaradılması barədə" Qərara qoşulmasının təsdiq edilməsi barədə müvafiq qanunlar qəbul etmişdir.

MDB iştirakçısı olan dövlətlər bir-biri ilə humanitar əməkdaşlığın həyata keçirilməsi məqsədi ilə 2005-ci il avqustun 26-da Kazan şəhərində "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlığı haqqında" Saziş imzalamışlar. Azərbaycan Respublikasının Milli Məclisi 12 dekabr 2006-cı ildə qeyd edilən Sazişin Azərbaycan Respublikasının həmin Sazişə dair qeydi ilə təsdiq edilməsi barədə müvafiq qanun qəbul etmişdir.

Bundan əlavə, ardıcıl olaraq Azərbaycan Respublikasının Milli Məclisi 22 may 2007-ci il tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin nəqliyyatda cinayətkarlıqla mübarizədə əməkdaşlığı haqqında" Sazişin Azərbaycan Respublikasının həmin Sazişə dair xüsusi rəyi ilə təsdiq edilməsi, 22 may 2007-ci il tarixdə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin vergi cinayətlərinə qarşı mübarizədə əməkdaşlığı haqqında" imzalanmış Sazişin Azərbaycan Respublikasının həmin Sazişə dair xüsusi rəyi ilə təsdiq edilməsi, 13 iyun 2008-ci ildə isə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluğa və ekstremizmin digər zorakı təzahürlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq Konsepsiyası haqqında" imzalanmış Qərarın Azərbaycan Respublikasının, Gürcüstanın, Moldova Respublikasının və Ukraynanın ona dair razılaşdırılmış xüsusi rəyi ilə təsdiq edilməsi, 22 iyun 2010-cu ildə isə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında" imzalanmış müqavilənin Azərbaycan Respublikasının ona dair xüsusi rəyi ilə təsdiq edilməsi barədə müvafiq qanunlar qəbul etmiş və beləliklə, Azərbaycan Respublikasının MDB üzvü olan qonşu region dövlətlərlə əməkdaşlığı gücləndirilmiş və qanunvericilik sistemi təkmilləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 oktyabr 2011-ci ildə "Şəxslərin dövlətlərarası axtarışı haqqında Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Müqaviləsi"nin təsdiq edilməsi barədə fərman imzalanmışdır.

Beləliklə, yuxarıda sadalanan qanunvericilik aktlarından məlum olur ki, Azərbaycan Respublikası MDB-yə qoşulduqdan sonra qanunvericiliyin müxtəlif sahələrində – mülki, cinayət, ailə, vergi, aviasiya, nəqliyyat və s. sahələrdə imzalanmış sazişlərə qoşulmaqla bu sahədəki qanunvericilik aktlarını təkmilləşdirmiş, beynəlxalq iqtisadi münasibətlərini və xarici-iqtisadi fəaliyyətini genişləndirərək, xarici-ticarət əməliyyatlarının həcmini artırmışdır. Bundan əlavə, narkotiklərin və prekursorların qanunsuz dövriyyəsinə, insan alverinə, vergi cinayətlərinə, kompyuter informasiyası sahəsində cinayətlərə, terrorçuluğa və ekstremizminə qarşı mübarizədə MDB dövlətləri ilə əməkdaşlıq barədə sazişlərə qoşularaq öz milli qanunvericilik sistemində mühüm islahatlar aparmışdır.

Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindən biri Azərbaycanın müstəqilliyinə qarşı yönələn bütün təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, qondarma Ermənistan Respublikası tərəfindən həyata keçirilən separatizm və işğalçılıq siyasətinin qarşısının alınması və bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması, region dövlətlərlə maraqların üst-üstə düşməsini təmin etmək və qarşılıqlı əməkdaşlıq çərçivəsində hərəkət etməkdir [2]. Beləliklə, bu gün də Azərbaycan – MDB əlaqələri inkişaf edir. Respublikamız keçmiş sovet respublikaları ilə ikitərəfli münasibətlərlə yanaşı, həmçinin MDB çərçivəsində bu dövlətlərlə çoxtərəfli əməkdaşlığa böyük önəm verir və buna paralel olaraq qanunvericlik sistemi inkişaf etdirilir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan-Müstəqil Dövlətlər Birliyinə dair ümumi tarixi arayış - http://lib.aliyevheritage.org/az/8089440.html
2. Azərbaycanın xarici siyasəti - https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan%C4%B1n_xarici siyas %C9%99ti
3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası - www.e-qanun.az
4. Müstəqil Dövlətlər Birliyinin internet portalı - http://e-cis.info/
5. Müstəqil Dövlətlər Birliyinin hüquqi aktlarının və digər sənədlərinin vahid reyestri - http://cis.minsk.by/reestr/ru/index.html#reestr/create